**Avropa İttifaqı Dünya İqlim Konfransı üçün hədəflərini müəyyənləşdirib**

Bir aydan da qısa müddət sonra 200-ə yaxın ölkə BMT-nin növbəti iqlim konfransında bir araya gələcək. Avropa İttifaqı (Aİ) konfransda təmsil etmək istədiyi konkret hədəfləri artıq müəyyənləşdirib. İttifaq qlobal istiləşməni məhdudlaşdırmağa yönəlmiş 1,5 dərəcə hədəfinə nail olmaq üçün Dünya İqlim Konfransında fəal iştirak etmək istəyir.

AZƏRTAC xəbər verir ki, bu barədə Almaniyanın "Tagesschau" xəbər xidmətinin saytında dərc olunan məqalədə bildirilib.

Məqalədə qeyd olunub ki, Avropa İttifaqına üzv ölkələrin ətraf mühit məsələlərindən məsul nazirləri Lüksemburqda keçirilən görüşdə bu barədə razılığa gəliblər. Bu məqsədlə digər məsələlərlə yanaşı, 2025-ci ildə təqdim olunacaq milli iqlim planlarında daha çox cəhd göstərilməlidir. Müzakirələrin başa çatmasından sonra Avropa İttifaqının yaydığı açıqlamada qeyd olunub: “Qlobal istiləşmənin 1,5 dərəcəyə qədər məhdudlaşdırılması başda böyük iqtisadiyyatlar olmaqla bütün ölkələrdən kollektiv səylər və daha sıx fəaliyyət göstərməyi tələb edir”.

Həmçinin qeyd olunub ki, nüvə enerjisinin rolu da müzakirələrin diqqət mərkəzindədir. Fransa və bir sıra digər Avropa İttifaqı ölkələri iqlim məqsədlərinə çatmaq üçün nüvə enerjisinə əsaslanır. Almaniya isə bərpaolunan enerji mənbələrini daha çox təşviq etmək istəyir.

Məqalədə vurğulanıb ki, əsas məsələ iqlim maliyyələşdirilməsi planlarında iqtisadiyyatın bütün sahələrinin əhatə edilməsi və istixana qazlarının mütləq azaldılmasına dair hədəflərin yer almasıdır. Bundan başqa, Avropa İttifaqı inkişaf etməkdə olan ölkələri dəstəkləmək üçün yeni bir ortaq hədəflə bağlı razılaşmanı da təşviq etmək istəyir. Bu səbəbdən iqlim maliyyələşməsi olaraq adlandırılan mexanizmə daha geniş töhfə verə bilən qrup daxil edilməlidir. Bu, 1990-cı illərin əvvəllərindən etibarən iqtisadi imkanların inkişafını və dövlətlərin qlobal istixana qazları emissiyasındakı payını nəzərə alacaq.

Yazıda qeyd edilib ki, əvvəlki iqlim maliyyələşməsi hədəfi 2009-cu ildə sənayeləşmiş ölkələr tərəfindən qəbul olunmuşdu. O, inkişaf etməkdə olan ölkələrdə ətraf mühitin qorunması və iqlim dəyişikliyinə uyğunlaşma üçün 2020-ci ildən etibarən hər il 100 milyard ABŞ dolları məbləğində vəsaitin toplanmasını qarşıya məqsəd qoymuşdu. Hədəf 2015-ci ildə Paris İqlim Konfransında təsdiqləndi və 2025-ci ilədək uzadıldı. 2022-ci ildə ilk dəfə 100 milyard dollar hədəfinə nail olundu. Ancaq indi əsl sual 2025-ci ildən sonra nə olacağıdır.

Məqalədə, həmçinin vurğulanıb ki, noyabrın 11-dən 22-dək COP29-a ev sahibliyi edəcək Azərbaycan Avropa İttifaqı ölkələri üçün mühüm enerji tədarükçüsüdür.

**Elvin Mövsüm**
**AZƏRTAC-ın xüsusi müxbiri, Berlin**

**AZƏRTAC**
**2024, 15 oktyabr**